# Səfir: Niderlandın su təşkilatları Azərbaycanda su ehtiyatlarının qiymətləndirilməsində çox fəallıq göstəriblər

Niderland Krallığının su səfiri Beynəlxalq İqlim Uyğunlaşması və Su Departamentinin Direktoru Mayke van Ginneken COP29 çərçivəsində təşkilat komitəsinin su üzrə proqramı, eləcə də su və uyğunlaşma mövzularında prioritet məsələləri ətraflı müzakirə etmək üçün Azərbaycana səfər edib.

AZƏRTAC xəbər verir ki, COP29 İdarə Heyəti və Azərbaycanda su idarəçiliyinə cavabdeh olan dövlət orqanları ilə görüşləri zamanı su səfiri COP29 çərçivəsində iqlim uyğunlaşması və su gündəliyinin əhəmiyyəti haqqında fikirlərini bölüşüb: “İnsanlar iqlim dəyişikliyinin nəticələrini su vasitəsilə görürlər, ya onların evləri su altında qalır, ya da məhsulu nizamsız yağışlar səbəbindən məhv olur. Məhz bu səbəbdən su və məkan planlamasını iqlimə uyğunlaşmanın mühərrikinə çevirmək üçün koalisiyalar qurmalıyıq”.

Su səfiri COP29 zamanı iddialı iqlim uyğunlaşması və bununla bağlı qlobal hədəflər üzrə irəliləyişi, yüksək səviyyəli tədbirlərdə suya dair tematik günləri və yeni təşəbbüsləri əhatə edən su gündəliyini görəcəyinə ümid etdiyini vurğulayıb.

Xanım səfir qeyd edib ki, COP28 zamanı Birləşmiş Ərəb Əmirliklərinin Qlobal İqlimə Dayanıqlılıq Çərçivə sənədi qəbul olunub. Həmin sənəddə siyasətin formalaşması prosesinə uyğunlaşmanın inteqrasiyası və uyğunlaşma səyləri üçün konkret istiqamətlər müəyyən olunub. Niderlandın su səfiri bütün ölkələri çərçivə sənədini icra etməyə və müvafiq olaraq öz Milli Uyğunlaşma Planlarını hazırlamağa təşviq edir. Bundan əlavə, BMT-nin 2023-cü il Su Konfransının yekunlarını həyata keçirmək üçün COP28-in Su Gündəliyi Niderland və Tacikistanla tərəfdaşlığa əsaslanıb. COP28 BƏƏ sədrliyi və tərəfdaşları 2030-cu ilə qədər yerin deqradasiyaya uğramış şirin su ekosistemlərinin 30 faizini qorumaq və bərpa etmək üçün birgə çalışmaq öhdəliyi yaradan “Freshwater Challenge”ın 30-dan çox yeni ölkə üzvünü elan ediblər.

ADA Universitetində keçirilən sessiyada Niderlandın su səfiri qeyd edib ki, ölkəsi iqlimə uyğunlaşmanın aktuallığını vurğulamaqda davam edəcək və həmin istiqamətdə su və məkan planlamasını COP29-un fokusuna çevirən inteqral və inklüziv uyğunlaşma yanaşmasını təşviq edəcək. Niderland, həmçinin BMT-nin 2023-cü il Su Konfransında qəbul edilmiş və COP28-də vurğulanan Su Fəaliyyəti Gündəliyi öhdəlikləri kimi mövcud təşəbbüslərin əsas götürülməsini təşviq edəcək və bu, 2024-cü ilin payızındakı Su İqtisadiyyatı üzrə Qlobal Komissiyanın nəticələrini işıqlandıracaq hesabatda öz əksini tapacaq.

“Suyun və iqlimin davamlılığına nail olmaq üçün institutların, universitetlərin, beyin mərkəzlərinin əsas rol oynadığı sahələrin inkişafını və potensialın gücləndirilməsini stimullaşdırmalıyıq. Bu gün biz ADA Universitetində təkcə su fəaliyyəti haqqında məlumat mübadiləsi aparmaq üçün deyil, həm də prioritetlərimizin və əldə olunmuş inkişafın qiymətləndirilməsində akademiyanın böyük əhəmiyyətini vurğulamaq üçün toplaşmışıq”, – deyə Niderlandın su səfiri bildirib.

Mayke van Ginneken, həmçinin su sahəsində dövlət qurumları ilə yüksək səviyyəli görüşlər keçirərək Niderlandın su təşkilatlarını COP29 üçün iqlim problemlərinin həllini təklif edən “iqlim qüvvələri” kimi təqdim edib. Bununla əlaqədar olaraq xanım səfir Niderlandın su şirkətlərinin və institutlarının su idarəçiliyi sahəsində təcrübələrini bölüşmək, innovativ həlləri nümayiş etdirmək, iqlim dəyişikliyinin su ehtiyatlarına təsirinə ünvanlanmaq və bu istiqamətdə qlobal əməkdaşlıq etmək üçün bu ilin sentyabr ayında Azərbaycana səfərini təklif edib. Bu günə qədər Niderlandın su təşkilatları Azərbaycanda ətraf mühitin mühafizəsi, suyun idarə olunması, daşqınlardan mühafizə, su ehtiyatlarının qiymətləndirilməsi, o cümlədən ölkədə su ehtiyatlarının daha inteqrasiya olunmuş şəkildə idarə edilməsi üçün institusional tövsiyələr kimi məsələlərdə çox fəallıq göstəriblər. Hazırda ölkənin su təsərrüfatında onların fəaliyyəti məhduddur. Bu istiqamətdə su səfiri Niderlandın su təşkilatlarının daha yaxşı və davamlı su idarəçiliyi üçün innovativ həllər təklif etmək məqsədilə ölkədə aktiv fəaliyyətlərini bərpa etməkdə maraqlı olduğunu qeyd edib.

**AZƏRTAC**
**2024, 25 iyul**